“Hemofiliyalı Xəstələr” İctimai Birliyi

# HEMOFİLİYA ZAMANI

YANVAR-DEKABR (2024)

www.hemofiliya.az

MÜALİCƏ HAMI ÜÇÜNDÜR

“Hemofiliya Zamanı” “Hemofiliyalı Xəstələr” İctimai Birliyinin ödənişsiz informasiya bülletenidir

## Dünya Hemofiliya Gününə həsr edilmiş Muğam Axşamı təşkil edildi










**Dünya Hemofiliya Günü dünyanın 147 ölkəsində müxtəlif formatlarda qeyd edilir. Məqsəd, müxtəlif qanın laxtalanma pozğunluqlarına ictimayyətin, həkimlərin və dövlət qurumlarının diqqətinin cəlb edilməsidir.**

Azərbaycanda, bütün dünyada olduğu kimi, hər il Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyası tərəfindən bu gün müxtəlif tədbirlər çərçivəsində qeyd olunur.

09 aprel 2024-cü il tarixində Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyası Mirzə Ələkbər Sabir Fondu, Beynəlxalq Muğam Mərkəzi ilə bərabər dövlət qurumları, həkimlər və ictimai xadimlərin iştirakı ilə Dünya Hemofiliya Gününə həsr olunmuş Muğam konserti təşkil etdi.

Mədəni tədbirin rəsmi hissəsində qht.az saytının baş redaktoru Cəsarət Hüseynzadənin moderatorluğu ilə Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədri Ayaz Hüseynov və Mirzə Ələkbər Sabir Fondunun prezidenti Sevda Tahirli çıxış edərək tədbirin mahiyyəti haqqında məlumat vermişlər. Bununla bərabər Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının 2023-cü il ərzində fəaliyyətinə həsr edilmiş video çarx izləyicilərə təqdim edilmişdir.

Daha sonra dövlət səhiyyə qurumlarının məsul şəxsləri və millət vəkili çıxış etmişlər.

Tədbirin mədəni hissəsində dəyərli muğam sənətkarları öz ifaları ilə tamaşaçılara zövq vermişlər.

Tədbirdə Mirzə Ələkbər Sabir Fondunun prezidenti Sevda Tahirli Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədri Ayaz Hüseynovu nümunəvi fəaliyyətinə və göstərdiyi xidmətlərə görə fəxri fərmanla təltif etdi.

Qeyd edək ki, tədbirdə 450-dən çox qonaq iştirak etdilər.

## Azərbaycanda 29 fevral 2024-cü il tarixində Pasiyent Təşkilatları İttifaqı və TƏBİB həkimlərlə bərabər hər il olduğu kimi 29 Fevral Beynəlxalq Nadir Xəstəliklər Gününə həsr edilmiş elmi konfras təşkil etdi













TƏBİB-in Tibbi təhsil və innovasiyalar departamentinin baş məsləhətçisi Romella Osmanovanın moderatorluğu ilə Elmi konfransın rəsmi hissəsində İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Tibbi Planlama departamentinin Monitorinq şöbəsinin müdiri Bəyalı Məmmədov, TƏBİB-in Tibbi təhsil və innovasiyalar departamentinin rəhbəri Teymur Mirzəbəyli, TƏBİB-in Tibbi təhsil və innovasiyalar departamenti, Davamlı tibbi təhsil şöbəsinin müdiri Emil İskəndərov, Pasiyent Təşkilatları İttifaqının sədri Ayaz Hüseynov çıxış etmişlər.

Konfransda beynəlxalq kriteriyalara əsasən müxtəlif nadir xəstəliklərin müalicəsi haqqında ixtisaslaşmış və müxtəlif profilli həkim heyəti olan Uzman Dr. Həsən Həsənzadə, Dr. Azad Əkbərzadə, T.ü.f.d Dr. Aygün Kazımlı, Dr. Sevil Cəlilova, Dr. Mina Adıgözəlova, Dr. Röyalə Babayeva, Prof. Dr. Aytən Məmmədbəyli, Dr. Fərid Əsədov, Dr. Aytən Hüseynova tərəfindən çıxışlar dinlənildi.

3 paneldən ibarət olan Konfrans aşağıdakı mövzuları əhatə etdi: “Birincili siliar diskenziya”, “Niyə kistik fibroz?”, “Pulmonar arterial hipertenziyanin diaqnostika və müalicəsinə yeni yanaşmalar”, “Nadir hematoloji xəstəlik olan porfiriyalara yanaşma”, “Nadir qanin laxtalanma pozğunluğu ilə olan xəstələrə müasir yanaşma”, “İlkin immun çatişmazliği və onun müalicəsi”, “Spinal əzələ atrofiyasi xəstəliyinin klinikası və yanaşma əsaslari”, “Azan sinirinin stimulyasiyasi. Nadir farmakorezistent epilyepsiya cərrahiyyisi”, “Prion xəstəlikləri”.

Çıxışlar əsasında həkimlər arasında təcrübə mübadiləsi aparıldı, mövcud çətinliklər mütəxəssislər tərəfindən qeyd edildi, səhiyyənin inkişafında yaxın gələcəyə atılacaq addımlar müzakirə edildi və nəticə etibarilə nadir xəstəliklərdən əziyyət çəkən pasiyentlərin keyfiyyətli müalicəsinin təşkilinə zəmin yaradılacaq.

Qeyd edək ki, Elmi Konfransda tibb işçiləri, pasiyent təşkilatlarının rəhbərlərindən ibarət 250-dən çox iştirakçı olmuşdur.

## 17.04.2024-cü il tarixdə “Hamı üçün bərabər əlçatanlıq və qanın müxtəlif laxtalanma pozğunluqlarının aşkarlanmasına dair” elmi konfrans keçirilib



TƏBİB və Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının təşkilatçılığı ilə “Hamı üçün bərabər əlçatanlıq və qanın müxtəlif laxtalanma pozğunluqlarının aşkarlanmasına dair” elmi konfrans keçirilib.

Konfransda TƏBİB-in İcraçı direktorun müşaviri Səkinə Sadıxova, Tibbi təhsil və innovasiyalar departamentinin rəhbəri Teymur Mirzəbəyli, Davamlı tibbi təhsil şöbəsinin müdiri Emil İskəndərov, Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədri Ayaz Hüseynov və digər rəsmi şəxslər iştirak edib.

Ümumdünya Hemofiliya Gününə həsr olunan elmi konfransda bildirilib ki, “Hamı



üçün bərabər əlçatanlıq və qanın müxtəlif laxtalanma pozğunluqlarının aşkarlanmasına dair” şüarı ilə dünyanın 114 ölkəsində müxtəlif tədbirlər keçirilir. Bu tədbirlərin keçirilməsində məqsəd qanın laxtalanma pozğunluğundan əziyyət çəkən müxtəlif diaqnozlu insanların müalicəsini yaxşılaşdırmaq, həyat keyfiyyətini yüksəltməkdir. Çıxış edənlər bundan sonra da qanın laxtalanma pozğunluğundan əziyyət çəkən insanların müayinə-müalicəsi, sosial müdafiəsi istiqamətində ictimai təşkilat və dövlət qurumları arasında




əməkdaşlığın davam edəcəyini bildiriblər.

Ümumdünya Hemofiliya Federasiyasının məlumatına görə, 10.000 nəfərdən biri hemofiliya xəstəliyi ilə doğulur. Hemofiliya X xromosomu ilə əlaqəli resessiv anadangəlmə qanın laxtalanma pozğunluğu ilə müşahidə olunan xəstəlikdir. İlk dəfə 1820-ci illərdə Schonlein tərəfindən araşdırılıb.

Xəstəlik daha çox kişilərdə müşahidə olunur, qadınlar isə daşıyıcıdırlar.

Elmi konfransda hemofiliya xəstəliyi ilə bağlı bir çox maraqlı aspektlərə toxunulub.




Mərkəzi Neftçilər Xəstəxanasının həkim-pediatrı Uzman dr. Nərmin Quluzadə hemofiliya A və B diaqnozu olan xəstələrin ailəvi hemofiliya daşıyıcılığı və X-inaktivasiya genetik təyini mövzusunda, Akademik M.Ə.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının Hematologiya şöbəsinin müdiri dr. Mina Adıgözəlova hemofiliya xəstəliyi və onun müasir müalicəsi mövzusunda, həmin xəstəxananın həkim-hematoloqu Firəngiz Nəzərli disfibrinogenemiya ilə olan hamilələrə yanaş-



ma, Tibbi Reabilitasiya Mərkəzinin direktor müavini, baş həkim dr. Gülay Qurbanzadə hemofiliyalı xəstələrin reabilitasiyası mövzusunda, Abşeron Rayon Mərkəzi Xəstəxanasının Üz-çənə cərrahiyyə şöbəsinin müdiri Uzman dr. Vüqar Qurbanov hemofiliyalı xəstələrdə stomatoloji xidmətin təşkili, Nərimanov Tibb Mərkəzi, 7 saylı Uşaq Yoluxucu Xəstəliklər Xəstəxanasının həkim-infeksionisti dr. Aybəniz Qaziyeva hemofiliyalı xəstələrdə infeksion xəstəliklərin gedişatı mövzusunda çıxış edib.




## Ayaz Hüseynov Madriddə elmi beynəlxalq konqresdə iştirak etdi




18.04.2024-24.04.2024 tarixlərdə keçirilən Dünya Hemofiliya Konqresində (Madrid, İspaniya) iştirak edən Ayaz Hüseynovun layiqli təmsilçiliyi Birliyin idarə heyəti tərəfindən dəyərləndirilib və yüksək qiymətləndirilib.

Dünya Hemofiliya Federasiyasının Azərbaycandan yeganə üzvü və təmsilçisi Hemofiliyalı Xəstələr İctimai Birliyi və idarə heyətinin sədri Ayaz Hüseynov Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin və Dünya Hemofiliya Federasiyasının dəstəyi ilə olan səfəri barədə hesabatına nəzər yetirsək aşağıda qeydləri qənaətbəxş edir:

1. Dünyanın 102 ölkəsindən qatılan Assosiasiya rəhbərləri üçün keçirilən Qlobal Təlimdə təcrübə mübadiləsi zamanı bildirildi ki, Azərbaycan Respublikasının dövlət səhiyyə qurumları və Assosiasiya xəstə vətəndaşların sağlamlığının qorunması üçün vəhdət təşkil edir.

2. Dünya Hemofiliya Federasiyasının Azərbaycanın həqiqi üzvü Hemofiliyalı Xəstələr İctimai Birliyinin fəaliyyətini Federasiyanın prezidenti Sezar Qarrido yüksək qiymətləndirmişdir.

3. Konqress zamanı Ayaz Hüseynov tərəfindən yeni əlaqələr qurmuş, illər boyu dost təşkilat rəhbərləri və həmkarlarla görüşlər keçirmiş, və yeni layihələr haqqında müzakirələr aparmışdır.

4. Konqress zamanı təşkil olunan Farmaseptik Şirkətlərin sәgisində yeni dərman preparatları haqqında məlumat almışdır.

5. Pasiyent Təşkilatları üçün keçirilən Qlobal Təlimdən sonra Ümumdünya Hemofiliya Konqresi öz işinə başlamış və həkim, alim, pasiyent və onların ailə üzvlərindən ibarət 147 ölkədən iştirakçı qatılmışdır. Qeyd edək ki, konqresdə iştirakçıların sayı 3.000 ötmüşdür. Burada Ayaz Hüseynov müxtəlif elmi sessiyalarda iştirak etmiş və dünyada inkişafda olan tibb elminin nailiyyətlərinə dair dəyərli məlumatlar almışdır.



Bunlardan:

- A və B Hemofiliyanın müasir müalicəsi;
- Gen terapiyası və əldə olunan nailiyyətlər;
- Müasir müalicədə tətbiq edilən uzun müddətli dərman preparatları;
- Villebrand xəstəliyindən əziyyət çəkən pasiyentlərə yeni yanaşma və dərman preparatının seçimi;
- Laxtalanma pozğunluqlarının müalicəsində müasir protokolların tətbiqi və sair mövzular olmuşdur.

Əldə olunan bilgilər hemofiliya və digər qanın laxtalanma pozğunluqlarının müalicəsini yeni və müasir mərhələyə çıxarmağa zəmin yaradacaq.

## 23 may 2024-cü il tarixində Abşeron Rayon Mərkəzi Xəstəxanasında “Hemofiliyanın müasir müalicəsinə dair multidisiplinar yanaşma” mövzusunda seminar keçirildi.

Seminarın açılışında Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədri son 1 il ərzində dövlət səhiyyə qurumları ilə birgə görülən işlər barədə ətraflı məlumat verdi və ha-



kimləri gələcək seminarlar və konfranslara təcrübə mübadiləsi üçün dəvət etdi.

Seminarda Respublika Klinik Xəstəxanasın Fizioterapiya şöbəsinin müdiri vəzifəsində çalışmış Dr. Əzizova Yeganə "Hemofiliyalı xəstələrdə oynaqdaxili qanaxmaların fəsadlarının aradan qaldırılmasında fizioterapiyanın rolu"; Respublika Klinik Xəstəxanasının hematologiya şöbəsinin həkimi Dr. Firəngiz Nəzərli "Hemofiliya xəstəliyinə yanaşma"; Abşeron Rayon Xəstəxanasının pediatrı Dr. Aynur Nəsib-zadə "Hemofiliyalı xəstələrə pediatrik yanaşma"; Abşeron Rayon Xəstəxanasının stomatoloqu Dr. Rövşən Alvasov "Hemofiliyalı xəstələrdə stomatoloji yardım və onun həyata keçirilmə aspektləri" mövzularında çıxış etmişlər.



Daha sonra stomatoloq Dr. Rövşən Alvasov və fizioterapevt Yeganə Əzizova Abşeron rayonu ərazisində yaşayan hemofiliyalı pasiyentləri müayinə edərək, konsultasiya keçirmişlər.

Göstərilən diqqət və peşəkarlığa görə TƏBİB başda olmaqla Abşeron Rayon Mərkəzi Xəstəxanasının rəhbərliyinə minnətdarlığımızı bildiririk.



## 6-9 iyun 2024-cü il taxirlərində Belçikanın paytaxtı Brüssel şəhərində Avropa Hemofiliya Konsorsiumunun liderlər Konfransı keçirildi

40 ölkədən olan iştirakçılar sırasında Konsorsiumun həqiqi üzvü Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının rəhbərliyi və idarə heyətinin üzvləri olmuşlar.

Konfransda professor Sedrik Hermans əsas çıxışında bildirmişdir ki, qanaxma pozğun-




luqlarının müalicəsinə əlçatanlığı təmin edilməlidi. Hemofiliyanın hazırkı müasir müalicəsi, qanın nadir laxtalanma pozğunluqları, qa-



dınlarda laxtalanma pozğunluğu, inhibitorlu pasiyentlərin müalicəsi və digər vacib mövzular ətrafında çıxışlar və müzakirələr olmuşdur.

İyun ayının 7-si Avropa Hemofiliya Konsorsiumunun (EHC) Fövqəladə Baş Assambleyasında üzvlər arasında uzun illər əməkdaşlıq prosesi sayəsində EHC icması Nizamnaməyə edilən dəyişikliklər notarius qarşısında yekdilliklə təsdiqlənmişdir.

Bundan başqa Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının nümayəndələri Avropa Hemofiliya Konsorsiumunun idarə heyətilə individual görüşü olmuşdur və görüş zamanı birgə əməkdaşıq və yaxın gələcəyə olan perspektivlər barədə bəhrəli müzakirələr aparılmışdır.

## 02.07.2024-cü il tarixində Şirvan Şəhər Mərkəzi Xəstəxanasında "Hemofiliyanın müasir müalicəsinə dair multidisiplinar yanaşma" mövzusunda seminar keçirilib.

Seminarın açılışında Şirvan Şəhər Mərkəzi Xəstəxanasının direktoru Pərviz Rüstəmbəyov hemofiliyalı vətəndaşların paytaxta getmədən yaşadıqları regionda müalicələrinin təşkilinin vacibliyini bildirmişdir. Daha sonra Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədri Ayaz Hüseynov son 1 il ərzində dövlət səhiyyə qurumları ilə birgə görülən işlər barədə ətraflı məlumat verib, gələcək seminarlarda və konfranslarda təcrübə mübadiləsi üçün tibb işçilərinin iştirakının vacibliyini vurğulayıb.

Seminarda uzun illər Fizioterapiya şöbəsinin müdiri vəzifəsində çalışmış Yeganə Əzizova "Hemofiliyalı xəstələrdə oynaqdaxili qanaxmaların fəsadlarının aradan qaldırılmasında fizioterapiyanın rolu", Respublika Klinik Xəstəxanasının Hematologiya şöbəsinin həkimi Firəngiz



Nəzərli "Hemofiliya xəstəliyinə yanaşma", Şirvan Şəhər Mərkəzi Xəstəxanasının ailə həkim-pediatrı Vüsalə Qafarzadə "Hemofiliyalı xəstələrə pediatrik yanaşma", Şirvan Şəhər Mərkəzi Xəstəxanasının həkim-stomatoloqu Elnurə Mirzəyeva "Hemofiliyalı xəstələrdə stomatoloji yardım və onun həyata keçirilmə aspektləri" Şirvan Şəhər Mərkəzi Xəstəxanasının həkim-travmatoloqu Şəmsi Əhmədov "Hemofiliyalı xəstələrin cərrahi müalicəsi" mövzusunda çıxış ediblər.

Daha sonra Şirvan Şəhər Mərkəzi Xəstəxanasının Fizioterapiya şöbəsinin müdiri Elmira İsmayılova, fizioterapevt Yeganə Əzizova, stomatoloq Elnurə Mirzəyeva və həkim-hematoloq





Firəngiz Nəzərli Şirvan şəhər ərazisində yaşayan hemofiliyalı pasiyentəri müayinə edərək konsultasiya keçiriblər.

## 12.07.2024-cü il tarixində Salyan Rayon Mərkəzi Xəstəxanasında "Hemofiliyanın müasir müalicəsinə dair multidisiplinar yanaşma" mövzusunda seminar keçirilib

Seminarın açılışında Salyan Rayon Mərkəzi Xəstəxanasının direktoru Dr. Şirinxanım Səmədova vətəndaşların paytaxta getmədən yaşadıqları regionda müalicələrinin təşkili və müalicənin multidisiplinar olmasının vacibliyini bildirib. Daha sonra Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədri Ayaz Hüseynov son 1 il ərzində dövlət səhiyyə qurumları ilə birgə görülən işlər barədə ətraflı məlumat verib, gələcək seminarlarda və konfranslarda təcrübə mübadiləsi üçün tibb işçilərinin iştirakının vacibliyini vurğulayıb.

Seminarda Abşeron Rayon Mərkəzi Xəstəxanasının pediatriya şöbəsinin müdiri Dr. Aynur Nəsibzadə "Pediatriyada hemofiliya xəstəliyi", Tibbi Reabilitasiya Mərkəzinin direktor müavini, baş həkim. Dr. Gülay Qurbanzadə "Hemofiliyalı xəstələrin reabilitasiyası", Salyan Rayon Mərkəzi Xəstəxanasının pediatriya şöbəsinin həkimi Dr. Sevinc Dadaşova və terapiya şöbəsinin həkimi Dr. Ağabəyova gültəkin hemofiliya xəstəliyinə hemofiliya xəstəliyindən əziyyət çəkə pasiyetlərinin statistikası və müalicədə mövcud çətinliklər mövzusunda çıxış etmişlər.



Daha sonra Salyan Rayon Mərkəzi Xəstəxanasının Fizioterapiya, Stomatologiya və Dializ şöbələri ilə tanışlıq olub. Laxtalanma pozğunluğu ilə olan Pasiyentlərin Fizioterapevtik və Stomatoloji müalicələrinin təşkilinə şəraitin olduğu bildirilib.

## 25.07.2024-cü il tarixində Şamaxı Rayon Mərkəzi Xəstəxanasında "Hemofiliyanın müasir müalicəsinə dair multidisiplinar yanaşma" mövzusunda seminar keçirilib

Şamaxı Rayon Mərkəzi Xəstəxanasının, TƏBİB-in və Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının birgə təşkilatçılığı ilə Şamaxı və Şamaxıya təhkim olan Ağsu, Qobustan, İsmayıllı xəstəxanalarının tibb işçiləri üçün "Hemofiliyanın müasir müalicəsinə dair multidisiplinar yanaşma" mövzusunda seminar keçirilib.

Seminarın açılışında Şamaxı Rayon Mərkəzi Xəstəxanasının direktoru İmran Qurbanov vətəndaşların paytaxta getmədən yaşadıqları regionda müalicələrinin təşkili və müalicənin multidisiplinar olmasının vacibliyini bildirib.

Daha sonra Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədri Ayaz Hüseynov son 1 il ərzində dövlət səhiyyə qurumları ilə birgə görülən işlər barədə ətraflı məlumat verib, gələcək seminarlarda və konfranslarda təcrübə mübadiləsi üçün tibb işçilərinin iştirakının vacibliyini vurğulayıb.



Seminarda Abşeron Rayon Mərkəzi Xəstəxanasının pediatriya şöbəsinin müdiri Dr. Aynur Nəsibzadə "Pediatriyada hemofiliya xəstəliyi", Tibbi Reabilitasiya Mərkəzinin direktor müavini, baş həkim. Dr. Gülay Qurbanzadə "Hemofiliyalı xəstələrin reabilitasiyası", Respublika Klinik Xəstəxanasının hematologiya şöbəsinin həkimi Məhluqə Talıbova "Hemofiliya xəstəliyinə yanaşma", Şamaxı Rayon Mərkəzi Xəstəxanasının anesteziya və reanimasiya şöbəsinin müdiri, Dr. Səməd Fətəliyev "Hematoloji xəstələrin klinikası, diaqnostikası, müalicəsi və anesteziyanın idarə olunması", Şamaxı Rayon Mərkəzi Xəstəxanasının üz-çənə cərrahı, həkim Dr. Avçiyev Rüstəm "Hematoloji xəstələrdə üz-çənə patalogiyalarında cərrahi yardım" və Şamaxı Rayon Mərkəzi Xəstəxanasının mama-ginekoloqu, həkim Dr. Hülya İsayeva "Hematoloji Xəstəliyi olan hamilələrdə hamiləliyin və doğuşun idarə olunması" mövzusunda çıxış ediblər.

Daha sonra Şamaxı Rayon Mərkəzi Xəstəxanasının Fizioterapiya və dializ şöbələri ilə tanışlıq olub. Laxtalanma pozğunluğu ilə olan pasiyentlərin fizioterapevtik və stomatoloji müalicələrinin təşkili rayon mərkəzi xəstəxanasıda olmasının vacibliyi bir daha vurğulandı.

## 29.07.2024-cü il tarixində Lənkəran Rayon Mərkəzi Xəstəxanasında "Hemofiliyanın müasir müalicəsinə dair multidisiplinar yanaşma" mövzusunda seminar keçirilib

29.07.2024-cü il tarixində Lənkəran Rayon Mərkəzi Xəstəxanasının, TƏBİB-in və Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının birgə təşkilatçılığı ilə xəstəxananın tibb işçiləri üçün "Hemofiliyanın müasir müalicəsinə dair multidisiplinar yanaşma" mövzusunda seminar keçirilib.



Seminarda Lənkəran Rayon Mərkəzi Xəstəxanasının direktoru Dr. Ağabala Kəlbiyev hemofiliyalı vətəndaşların paytaxta getmədən yaşadıqları regionda müalicələrinin təşkili və müalicənin multidisiplinar olmasının vacibliyini bildirib.

Daha sonra Hemofiliyalı Xəstələrin Res-



publika Assosiasiyasının sədri Ayaz Hüseynov son 1 il ərzində dövlət səhiyyə qurumları ilə birgə görülən işlər barədə ətraflı məlumat verib, gələcək seminarlarda və konfranslarda təcrübə mübadiləsi üçün tibb işçilərinin iştirakının vacibliyini vurğulayıb.

Seminarda Abşeron Rayon Mərkəzi Xəstəxanasının pediatriya şöbəsinin müdiri Dr. Aynur Nəsibzadə "Pediatriyada hemofiliya xəstəliyi", Yeni Klinika Tibb Mərkəzinin laboratoriya şöbəsinin müdiri Dr. Nigar Əfəndiyeva "Hemofiliya və digər koaqulopatiyalara laborator yanaşma" mövzularında çıxış ediblər, Respublika Klinik Xəstəxanasının hematologiya şöbəsinin həkimi Dr. Məhluqə Talıbova "Hemofiliyalı xəstələrə yanaşma" Lənkaran Rayon Qan Bakının rəhbəri Dr. İlkin Əsədullayev "Hemofiliyalı xəstələrə ilkin yardım" mövzularında çıxış etdilər.

Daha sonra Lənkəran Rayon Mərkəzi Xəstəxanasının Fizioterapiya şöbəsi və Stomatologiya kabinetləri ilə tanışlıq olub. Laxtalanma pozğunluğu olan pasiyentlərin fizioterapevtik və stomatoloji müalicələrinin təşkilində tövsiyələri dinlənilib.

## 11-13 sentyabr 2024-cü il tarixində ANA & BALA 6 Sağlamlıq Yay Düşərgəsi uğurla həyata keçirildi

Düşərgə daxili qanın laxtalanma pozğunluğundan əziyyət çəkən uşaqlara və onların valideynlərinə stomatoloq Dr. Aybəniz Şahmuradova tərəfindən təlimlər və individual müayinələr keçirildi. Təlimlər zamanı sədr Ayaz Hüseynov tərəfindən Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının çap etdiyi ağız boşluğunun qorunmasına dair kitabçalar düşərgə iştirakçılarına paylanıldı və təlim sual cavab ilə davam etdi.

Bundan başğa qanın laxtalanma pozğunluğunun verdiyi oynaq daxili fəsadlarının aradan qaldırılmasında fizioderapiyanın böyük rolu



olduğundan düşərgə iştirakçıları üçün Tibbi Reabilitasiya Mərkəzinin direktoru Dr. Rüfət Cabbarlı və baş həkim Dr. Gülay Qurbanzadə tərəfindən təlim keçirildi və pasiyentlərin müayinəsi təşkil edildi.

Son olaraq düşərgə iştirakçılarının ilkin tibbi yardımın bilmələri və damar daxili inyeksiya etmək bacarıqlarının olması çox vacib olduğundan, Bakı Sağlamlıq Mərkəzinin baş tibb bacısı Aygün Şahbazovanın rəhbərliyi ilə yuxarıda qeyd edilən mövzuda nəzəri və praktik təlimlər keçirildi.



Hemofiliyası olan körpələrin valideynləri xüsusi mulyajlar üzərində damardaxili inyeksiya təlimləri keçdi və təlimlər sual cavab ilə yekunlaşdı.



Ümumilikdə düşərgədə 70 nəfər oldu və düşərgə boyunca iştirakçılar üçün maraqlı asudə vaxtlarının təşkili təmin edildi, habelə fiziki idmana xüsusi yer ayrıldı.

Məqsədimiz, biliklərimizi paylaşaraq uşaqların sağlam böyüməsidir!

## 04-06 oktyabr 2024-cü il tarixində özündə avropanın 47 pasiyent təşkilatlarını birləşdirən Avropa Hemofiliya Konsorsiumunun təşkilatçılığı ilə Bolqarıstanın Sofiya şəhərində tibbi elmi beynəlxalq konfrans keçirildi

Avropa Hemofiliya Konsorsiumunun yeganə və həqiqi üzvü Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədri Ayaz Hüseynov Azərbaycanı təmsil etmişdir.



Beynəlxalq konfransda vacib mövzulara toxunulmuşdur. Bunlardan Von Villebrand və hemofiliyanın müasir müalicəsi, müxtəlif trombosit xəstəliklərinin müalicəsində yeni yanaşmalar və bu kimi sair vacib mövzulara toxunulmuşdur.

## 31.10.2024-cü il tarixində Göyçay Rayon Mərkəzi Xəstəxanasında “Hemofiliyanın müasir müalicəsinə dair multidisiplinar yanaşma” mövzusunda seminar keçirilib

Seminarda Göyçay Rayon Mərkəzi Xəstəxanasının direktoru Dr. Talıb Məmmədov hemofiliyalı vətəndaşların paytaxta getmədən yaşadıqları regionda müalicələrinin təşkili və müalicənin multidisiplinar olmasının vacibliyini bildirdi və davamlı tibb işçiləri üçün təlimlərin keçirilməsinin əhəmiyyətli olduğunu vurğuladı.



Daha sonra Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədri Ayaz Hüseynov dövlət səhiyyə qurumları ilə birgə görülən işlər barədə ətraflı məlumat verib, gələcək seminarlarda və konfranslarda təcrübə mübadiləsi üçün tibb işçilərinin iştirakının vacibliyini vurğulayıb.

Seminarda Respublika Klinik Xəstəxanasının hematologiya şöbəsinin müdiri Dr. Məhluqə Talıbova “Hemofiliyalı xəstələrə yanaşma” və fizioterapevt Yeganə əzizova "Hemofiliyalı Pasiyentlərin müalicəsində fizioterapiyanın faydası" mövzularında çıxış etdilər.



Daha sonra Göyçay Rayon Mərkəzi Xəstəxanasının Fizioterapiya və stomatologiya şöbələri ilə tanışlıq olub. Laxtalanma pozğunluğu ilə olan pasiyentlərin fizioterapevtik və stomatoloji müayinələrdən keçmişlər.

Müayinələr stomatoloq Dr. Şıxıyev Toğrul və Dr. Ləman Ağayeva tərəfindən, fizioterapevtik müayinələr Dr.Yeganə Əzizova və Dr. Briliant Əliyeva tərəfindən aparılmışdır.

Qeyd edək ki, Göyçay Rayon Mərkəzi Xəstəxanasının Fizioterapiya şöbəsi 2023-cü ildə Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyası tərəfindən tibbi avadalıq və tibbi məbellə təchizatlandırılmışdır.

## 30.10.2024-cü il tarixində Zaqatala Rayon Mərkəzi Xəstəxanasında “Hemofiliyanın müasir müalicəsinə dair multidisiplinar yanaşma” mövzusunda seminar keçirilib

Seminarda Zaqatala Rayon Mərkəzi Xəstəxanasının direktoru Dr. Tamara Nurəliyeva hemofiliyalı vətəndaşların paytaxta getmədən yaşadıqları regionda müalicələrinin təşkili və müalicənin multidisiplinar olmasının vacibliyini bildirib.

Daha sonra Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədri Ayaz Hüseynov son 1 il ərzində dövlət səhiyyə qurumları ilə birgə görülən işlər barədə ətraflı məlumat verib, gələcək seminarlarda və konfranslarda təcrübə mübadiləsi üçün tibb işçilərinin iştirakının vacibliyini vurğulayıb.

Seminarda Respublika Klinik Xəstəxanasının hematologiya şöbəsinin müdiri Dr. Məhluqə Talıbova “Hemofiliyalı xəstələrə yanaşma” və fizioterapevt Yeganə əzizova "Hemofiliyalı Pasiyentlərin müalicəsində fizioterapiyanın faydası" və Zaqatala Rayon Mərkəzi Xəstəxanasının stomatoloqu Dr. İsmayılova Sevda “Hemofiliyalı xəstələrdə ağız boşluğu və diş problemləri” mövzularında çıxış etdilər.





Daha sonra Zaqatala Rayon Mərkəzi Xəstəxanasının Fizioterapiya şöbəsi və ilə tanışlıq olub. Laxtalanma pozğunluğu ilə olan pasiyentlərin fizioterapevtik müalicələrinin Zaqatala rayonunda təşkili yüksək üiymətlədirilib və təkliflər dinlənilib.

Qeyd edək ki, Zaqatala Rayon Mərkəzi Xəstəxanasının Fizioterapiya şöbəsi 2023-cü ildə Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyası tərəfindən tibbi avadalıqlar və tibbi məbellə təchizatlandırılmışdır.

## 27.12.2024-cü il tarixində Quba Rayon Mərkəzi Xəstəxanasının yeni Fizioterapiya və Reabilitasiya şöbələrinin açılışı olub

TƏBİB, Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyası, Novo Nordisk Hemofiliya Fondunun dəstəyi ilə Quba Rayon Mərkəzi Xəstəxanasında yeni Fizioterapevtik və Reabilitasiya kabinetlərinin açılışı olub.



Açılış mərasimində TƏBİB-in İcraçı direktorunun müavini Anar İsrafilov, İcraçı direktorun müşaviri Pərvin Əkbərov, İxtisaslı tibbi xidmətlərin təşkili şöbəsinin müdiri Vüsal Yusifov, Quba Rayon Mərkəzi Xəstəxanasının direktoru Əliyar Sərvərov, Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədri Ayaz Hüseynov iştirak edib.

Xəstəxanada həyata keçirilən yeniliklər, Fizioterapiya şöbəsinin fəaliyyəti və yaradılan şəraitlə bağlı məlumat verən Əliyar Sərvərov bildirib ki, bu yeniliklər sayəsində göstərilən



tibbi xidmətin keyfiyyəti yüksəldiləcək və vətəndaş məmnunluğu daha da artırılacaq.

Yeni şöbə tibbi reabilitasiya cihazları, amplipuls, ultrasəs və digər müasir fizioterapiya aparatları da daxil olmaqla, bütün zəruri tibbi avadanlıqlarla təmin edilib. 2 həkim 3 tibb bacısından ibarət tibbi heyətin xidmət göstərəcəyi şöbə eyni zamanda 8 pasiyent qəbul etmək potensialındadır.



Yeni Şüa-diaqnostika şöbəsində 4 həkim, 4 radioloji texnik olmaqla, ümumilikdə 15 nəfər tibbi heyət xidmət göstərəcək.

Həmçinin şöbədə 4 həkim otağı, gözləmə zalı və qeydiyyat bölməsi də yerləşir.

## 17 dekabr 2024-cü il tarixində 2022-2024-cü illər ərzində qanın laxtalanma pozğunluğundan əziyyət çəkən vətəndaşlara tibbi yardımın kompleks yanaşılmasına dair hesabat konfransı keçirildi.

Konfransda Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədri Ayaz Hüseynov 3 il ərzində görülən mühüm işləri təqdim etdi.



Görülən işlərdən 5 Rayon Mərkəzi Xəstəxanalarda fizioterapiya və reabilitasiya kabinetlərinin təchizatlandırılması, Bakı Şəhərində Milli Hematologiya və Transfuziologiya Mərkəzində və Naxçıvan şəhər Mərkəzi Xəstəxanasında irsi qan xəstəliklərindən əziyyət çəkən vətəndaşların ağız boşluğunun keyfiyyətli müalicəsi üçün stomatoloji kabinetlərin yaradılması və müasir avadanlıqla təchizatı, 3 il ərzində konfranslar və seminarlar nəticəsində 1200-dən çox tibb işçisinin və 600-dən çox pasiyent və onların ailə üzvlər təlim keçmişdir.

Bundan başqa Assosiasiya tərəfindən Dünya Hemofiliya Federasiyasının Hemofiliyanın müasir müalicəsinə dair 3-cü ən son təlimat kitabı tərcümə edilərək tibb müəsisələrinə və dövlət səhiyyə qurumlarına təqdim olunmuşdur.

Konfransda TƏBİB-in icraçı direktorunun müşaviri Dr. Pərvin Əkbərov bu sahədə TƏBİB tərəfindən görülən işlər və gələcək perspektivlər barəsində ətraflı məlumat vermişdir.

Millət vəkili Pərvanə Vəliyeva görülən işləri yüksək qiymətləndirərək Hemofiliyaya dair Azərbaycan Respublikası Qanunvericiliyinə yenidən baxılması və təkmilləşməsinə ehtiyac



olduğunu bildirdi.

Milli Qeri Hökumət Təşkilatları Forumunun sədri Ramil İskəndərli öz çıxışında İxtisaslaşmış təşkilatların dövlət qurumları ilə birgə əməkdaşlığının vacibliyi və töhfələri barədə ətraflı məlumat verdi.

Respublika Klinik Xəstəxanasının Baş Həkimi Dr. Sahib Hüseynov hemofiliyalı vətəndaşların müalicə aldığı Respublika Kliniki Xəstəxananın Hematalogiya şöbəsinin imkanlarından və xəstəxananın keçən il təkmilləşdirilmiş labaratoriyası barədə məlumat verdi.

İnformasiya Təşəbbüslərinə Sosial Dəstək İctimai Birliyinin sədri, jurnalist Cəsarət Hüseynzadə Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının illər ərzində qanın laxtalnma pozğunluğu sahəsində gördüyü işləri yüksək qiymətləndirdi və səhiyyənin inkişafında əvəzsiz rolu olduğunu bildirdi.

Bundan başqa konfransda Qeyri-hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Layihələrin İdarə Edilməsi Departamentinin müdiri Elnur Bağırlı, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının Beynəlxalq təşkilatlar və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq şöbəsinin Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi sektorunun müdiri Aytən Tarverdiyeva və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sektor müdiri Zəminə Səfərova iştirak etmişlər.



“Hemofiliyalı Xəstələr” İctimai Birliyi
Ünvan: AZ1147, Bakı şəhəri, Adil Məmmədov küç. 83
+994125131539 www.hemofiliya.az

İnformasiya bülleteninin buraxılışında maliyyə dəstəyi üçün octapharma şirkətinə təşəkkürümüzü bildiririk.